*Ölkəmizdə enerji səmərəliliyi siyasətinin əsası 1996-cı ildə qoyulub. Həmin il qəbul edilən "Enerji resurslarından istifadə haqqında" Qanun enerji ehtiyatlarından daha səmərəli və iqtisadi cəhətdən daha faydalı şəkildə istifadəni nəzərdə tuturdu. Bu siyasətin əsas məqsədi müasir texnologiyalardan istifadə ilə enerjiyə qənaət etmək və ətraf mühitə mənfi təsirləri minimuma endirməkdir.*




# Azərbaycanın və Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə

Beləliklə, ölkəmiz enerji resurslarından ağıllı və effektiv istifadə edərək həm iqtisadi inkişafı təmin edir, həm də ekoloji tarazlığı qoruyur. Həm də adıçəkilən qanun enerji resurslarından istifadədə dövlət siyasətinin əsas prinsiplərini və tənzimləmə mexanizmlərini müəyyənləşdirir. Eyni zamanda müvafiq icra hakimiyyəti orqanlarının bu sahədəki fəaliyyət istiqamətləri də aydın şəkildə göstərilir. Ölkəmizdə enerji səmərəliliyinin artırılması məqsədilə həm istehsal, həm də istehlak sektorunda mühüm addımlar atılır. Xüsusilə istehsal sahəsində genişmiqyaslı işlər görülür. Yeni, müasir standartlara uyğun elektrik stansiyalarının tikilməsi, mövcud stansiyaların modernləşdirilməsi, neft emalı müəssisələrinin yenidən qurulması, energetika sistemində itkilərin azaldılması və elektrik stansiyalarının enerji sərfiyyatının optimallaşdırılması həyata keçirilən əsas tədbirlər sırasındadır. Bütün bu addımlar Azərbaycanın enerji potensialını daha səmərəli idarə və dayanıqlı inkişafını təmin etməyə xidmət edir.

Prezident İlham Əliyevin ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasını uğurla davam etdirməsi nəticəsində enerji sektorunda yeni nailiyyətlər qazanılıb. Düşünülmüş və məqsədyönlü siyasət nəticəsində ölkəmiz neft və qazla bərabər, həm də elektrik enerjisinin ixracatçısı kimi tanınır. 2003-2023-cü illər ərzində elektrik enerjisinin idxalı 17 dəfə azalıb, ixracı 3 dəfədən çox artıb. Ötən ilin sonlarına qədər yeni elektrik stansiyalarının istifadəyə verilməsi ilə ölkəmizin ümumi elektrik enerjisi istehsal gücü 8 415,6 meqavata çatıb ki, bu da əvvəlki illə müqayisədə 324,8 meqavat və ya 4 faiz artım hesab olunur. Hazırda ölkənin elektroenergetika sistemində 22 istilik elektrik stansiyası (6 623 meqavat), 58 su elektrik stansiyası (1 406,6 meqavat), 9 günəş elektrik stansiyası (278,1 meqavat), 5 külək elektrik stansiyası (63,7 meqavat), 1 bərk məişət tullantıları elektrik stansiyası (37 meqavat) və 3 hibrid elektrik stansiyası (7,3 meqavat) fəaliyyət göstərir. Bütün bunlar Azərbaycanın enerji sektorunda güclü və müasir ölkəyə çevrildiyini bir daha təsdiq edir.

2023-cü il fevralın 13-də Azərbaycanın, eləcə də Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə sayılan tarixi hadisə baş verib. Həmin gün Prezident İlham Əliyevin iştirakı ilə Bakıda "Gülüstan" sarayında müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. Dövlətimizin başçısı tədbirdə Azərbaycanın uğurlarından, tərəfdaş ölkələrlə əlaqələrinin inkişafından geniş bəhs edərək bildirib ki, Mingəçevir şəhərinin, nəinki Azərbaycanın, bütün Qafqazın elektroenergetika mərkəzi kimi yeni dövrü başlayır: "Təxminən 1300 meqavat gücündə olan stansiya əlbəttə ki, bizim potensialımızı böyük dərəcədə gücləndirəcək. Bu, Azərbaycanın enerji təhlükəsizliyinə verilən növbəti töhfə olacaq, yüzlərlə yeni iş yerləri yaranacaq və beləliklə, Azərbaycan öz imkanlarından tam istifadə edərək həm daxili tələbatı ödəyəcək, eyni zamanda, həm elektroenergetika, həm də təbii qaz sahəsində daha böyük addımlar atacaq. Çünki yeni tikiləcək stansiyada şərti yanacağın sərfiyyatı kifayət qədər aşağıdır və bu, imkan verəcək ki, ildə təqribən 800 milyon kubmetr və ya 1 milyard kubmetr qaza qənaət edilsin. Bu gün Avropa məkanında Azərbaycan qazına böyük tələbat olduğu üçün bu, eyni zamanda Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə olacaqdır...". Hazırda inşa edilən yeni İstilik Elektrik Stansiyası (İES) müasir standartlara tam cavab verəcək və ətraf mühitə böyük faydası olacaq. Karbon qazı emissiyası tam 2 milyon ton azalacaq, bu isə ekoloji baxımdan olduqca mühüm nailiyyətdir. Stansiya tamamilə Azərbaycanın daxili resursları hesabına inşa edilir. Bu nəhəng layihənin dəyəri təxminən 400 milyon dollar olaraq qiymətləndirilir.

Qeyd edək ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Mingəçevirdə inşa edilən "Azərbaycan" İstilik Elektrik Stansiyası (İES) 1981-ci ildən etibarən ölkəmizin enerji təhlükəsizliyində mühüm rol oynayıb. Sovet dövründə Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası hesab edilən bu nəhəng enerji obyekti müstəqilliyin ilk illərində Azərbaycanın enerji tələbatının əsas hissəsini qarşılayırdı. Lakin keçid dövründə baxımsızlıq və istismar müddətinin başa çatması ciddi problemlər yaratdı. Prezident İlham Əliyevin tapşırığı ilə 2020-ci ildə stansiyanın hər biri 300 MVt gücündə olan 8 bloku yenidən quruldu və nəticədə stansiya yenidən tam gücü ilə fəaliyyətə başladı. Bununla da stansiyanın dayanmaq təhlükəsi aradan qaldırıldı, istismar müddəti ən azı 20 il uzadıldı və 620 MVt-dan artıq "itirilmiş" güc bərpa edildi. Lakin köhnə enerji bloklarının 38,5 faizdən artıq olmayan faydalı iş əmsalı və yüksək yanacaq sərfiyyatı yeni həll yollarının axtarılması zəruri edirdi.




Azərbaycanın enerji ixrac imkanlarının genişlənməsi və Avropada artan tələbat da bu sahədə daha böyük addımların atılmasını tələb edirdi. Məhz buna görə də "Azərenerji" mütəxəssisləri "Azərbaycan" İES-in mövcud infrastrukturu ilə inteqrasiya olunacaq yeni elektrik stansiyasının layihəsini hazırladılar.

Prezident İlham Əliyevin 2022-ci il 25 oktyabr tarixli Sərəncamına əsasən, Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan Mingəçevir "Azərbaycan" İES-in ərazisində yeni, müasir elektrik stansiyasının tikintisinə başlanılıb. "Azərenerji" tərəfindən həyata keçirilən bu nəhəng layihə Azərbaycanın enerji potensialını daha da gücləndirəcək. 1280 meqavatlıq yeni stansiyanın tikintisində ən qabaqcıl texnologiyalar tətbiq edilir. Burada İtaliyanın məşhur "Ansaldo Energia" şirkətinin istehsalı olan 4 qaz turbini və 4 generator, eləcə də Çinin "Dongfang Electric" şirkətinin hazırladığı 4 util qazan və 4 blok transformatoru quraşdırılacaq. Layihə çərçivəsində yeni yüksəktəzyiqli qaz xətti, qazpaylayıcı stansiya, su soyutma və saf su hazırlanma, müasir idarəetmə və mühafizə sistemləri qurulacaq. Bununla yanaşı, 500 və 330 kV-luq yarımstansiyalarda genişmiqyaslı yenidənqurma aparılacaq. Beləliklə, Azərbaycanın enerji sistemində 1280 meqavatlıq yeni və nəhəng elektrik stansiyası yaradılacaq. Bu stansiya "Azərbaycan" İES-in heç bir infrastrukturu olmadan müstəqil istismar edilə biləcək.

Paralel olaraq, ümumi səmərəliliyi artırmaq üçün "Azərbaycan" İES-in 7-ci və 8-ci enerji bloklarının mövcud buxar turbinləri zəmanətli əsaslarla modernləşdirilərək yeni stansiya ilə əlaqələndiriləcək. Bu, ümumi səmərəliliyi artırmaqla yanaşı, enerjinin daha qənaətli və effektiv istehsalına imkan yaradacaq. Maraqlıdır ki, yeni elektrik stansiyasının qaz turbinlərindən çıxan işlənmiş qaz utilizasiya yolu ilə suyu buxara çevirəcək və buxar "Azərbaycan" İES-in 7-ci və 8-ci bloklarının turbinlərində əlavə qaz sərf etmədən enerji hasil edəcək. Bu innovativ yanaşma ümumi gücü 1880 meqavata çatdıracaq və hər il 0,8-1,2 milyard kubmetr qaza qənaət ediləcək. Bu qənaət təkcə ölkəmizin enerji təhlükəsizliyini möhkəmləndirməyəcək, eyni zamanda Azərbaycan qazına tələbatın artdığı Avropa bazarında da mühüm rol oynayacaq. Daha önəmlisi, bu nəhəng layihəyə qoyulan investisiya maksimum 6 ilə geri qayıdacaq, yəni ən qısa müddətdə özünü tam doğruldacaq. Bununla da Mingəçevirdə inşa edilən yeni 1280 meqavat gücündə elektrik stansiyası Azərbaycanın enerji dayanıqlılığını daha da möhkəmləndirəcək, ölkəmizin yüksələn enerji tələbatını qarşılayacaq və ixrac imkanlarını genişləndirəcək. Xüsusilə qeyd etmək lazımdır ki, stansiyanın Mingəçevirdə qurulması şəhərin sosial-iqtisadi inkişafına böyük təkan verəcək, yeni iş yerləri açılacaq və yerli əhalinin rifahı da yüksələcək.

**Musa BAĞIRLI,**
**"Respublika".**